

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 115 (23.757)

*26 iyun 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali nümayəndəsi Cozef Borelin mandatı əsasında Azərbaycana səfər edən Rumıniyanın Xarici İşlər naziri Boqdan Aureskunu, Avstriyanın Xarici İşlər naziri Aleksandr Şallenberqi, Litvanın Xarici İşlər naziri Qabrielius Landsbergisi və Avropa İttifaqının nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev qəbul zamanı deyib ki, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı çox uğurludur, bir çox ölkə ilə, 9 üzv ölkə ilə strateji tərəfdaşlığa dair sənəd və sazişlər imzalayıb və qəbul edib. Üç il əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını dəstəkləyən tərəfdaşlıq prioritetlərinə dair sənəd paraflanıb.

Bu il və gələn il ərzində postmünaqişə vəziyyəti ilə bağlı əsas fundamental yanaşmalar işlənib hazırlanacaq. Azərbaycanın mövqeyi çox açıq və aydındır.

Dövlətimizin başçısı bildirib ki, biz postmünaqişə vəziyyətindən Cənubi Qafqazda sülhməramlı inkişafa və əməkdaşlığa keçmək istəyirik. Bizə sülh və dayanıqlı inkişaf, proqnozlaşdırılma, sıfır müharibə riski lazımdır, bizə müharibə lazım deyil. Bizə əvvəl də müharibə lazım deyildi.

Rumıniyanın Xarici İşlər naziri Boqdan Auresku, Avstriyanın Xarici İşlər naziri Aleksandr Şallenberq, Litvanın Xarici İşlər naziri Qabrielius Landsbergis qəbul zamanı çıxış ediblər.

# Naxçıvanda Silahlı Qüvvələr Günü qeyd olunub

## Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələri üçün yeni yaşayış və xidmət kompleksi istifadəyə verilib





İyunun 25-də – Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü ərəfəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələri üçün yeni yaşayış və xidmət kompleksi istifadəyə verilmiş, Əlahiddə Ümumqoşun Ordunun İkinci Qarabağ müharibəsində iştirak edən hərbi qulluqçularına Azərbaycan Respublikası təltiflərinin təqdimatı olmuş, qüsursuz xidmət edən hərbçilərə mənzillər verilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-polkovnik Kərəm Mustafayev Ali Məclisin Sədrinə tədbirin hazırlığı barədə məruzə etmişdir.

Ali Məclisin Sədri şəxsi heyəti salamlamış, onları təltiflərin təqdimatı, yeni yaşayış və xidmət kompleksinin istifadəyə verilməsi münasibətilə təbrik etmişdir.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Ali Məclisin Sədri 26 İyun – Silahlı Qüvvələr Günü ərəfəsində Naxçıvan şəhərində hərbi hissələr üçün yeni yaşayış və xidmət kompleksi istifadəyə verildiyini, həmçinin Əlahiddə Ümumqoşun Ordunun İkinci Qarabağ müharibəsində iştirak edən hərbi qulluqçularına orden və medalların, Silahlı Qüvvələrdə 20 il və daha çox qüsursuz xidmət etmiş hərbçilərə isə mənzillər təqdim olunduğunu bildirərək demişdir: “Əlamətdar gün və tədbirlər münasibətilə muxtar respublikadakı ordu, birləşmə və hissələrin şəxsi heyətlərini, hərbçi ailələrini, müharibə veteranlarını və şəhid ailələrini təbrik edir, suverenliyimiz və ərazi bütövlüyümüz uğrunda canlarını qurban verən qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında baş əyirik”.

Ali Məclisin Sədri demişdir: Güclü ordu müstəqilliyin, inkişafın və sabitliyin təminatıdır. Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə bu amili dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşdirmişdir. ***“Hər bir dövlətin müstəqilliyinin rəmzi və təminatçısı onun silahlı qüvvələridir”***, – deyən ulu öndərin 1993-cü ildə ali hakimiyyətə ikinci qayıdışından sonra həyata keçirdiyi tədbirlər Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasında və inkişafında əsas baza olmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi, ***“1993-cü ildə ölkəmiz demək olar ki, parçalanırdı, vətəndaş müharibəsi gedirdi və məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində biz bu ağır sınaqdan üzüağ çıxa bildik. Məhz bugünkü Zəfərin təməli, bax, o vaxt qoyulmuşdur”.***



Ali Məclisin Sədri demişdir: Bu gün ölkə Prezidentinin ümummilli liderin yolunu uğurla davam etdirməsinin nəticəsidir ki, müstəqilliyimizin və dövlətçiliyimizin qarantı olan güclü ordumuz vardır. Naxçıvan Muxtar Respublikasında da müdafiə təhlükəsizliyinin təmin olunması, hərbi hissələrin maddi-texniki bazasının gücləndirilməsi, döyüş hazırlığının yüksəldilməsi və hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Müstəqillik illərində muxtar respublikada 300-ə yaxın hərbi təyinatlı obyekt istifadəyə verilmiş, hərbi qulluqçuların və ailələrinin sosial-məişət şəraiti yaxşılaşdırılmışdır. Bu gün istifadəyə verilən yeni yaşayış və xidmət kompleksi, eləcə də təqdim olunan mənzillər ordu quruculuğu tədbirlərinin tərkib hissəsidir. Muxtar respublikada hərbi qulluqçuların

*Ardı 2-ci səhifədə*

döyüş hazırlığı da artırılmışdır. Qarşıya qoyulan istənilən vəzifə və tapşırıqlar yüksək hərbi səriştə, peşəkarlıq və vətənpərvərliklə yerinə yetirilir.

"Ordu dövlətin əsas sütunu, hərbi xidmət isə Vətən qarşısında müqəddəs borcdur", – deyən Ali Məclisin Sədri çıxışını ümummilli liderimiz Heydər Əliyevin müdrik fikirləri ilə tamamlamışdır: ***"Bizim hamımızın bir Vətəni var – bu, Azərbaycandır. Hamımız bir torpaqda yaşayırıq – bu, Azərbaycan torpağıdır. Azərbaycan torpağının hər guşəsi hər birimiz üçün müqəddəs yerdir".***

İkinci Qarabağ müharibəsi iştirakçısı, "Azərbaycan Bayrağı" ordenli kapitan Mirza Musayev minnətdarlıq edərək demişdir: "Ulu öndərimiz Heydər Əliyevin böyük səylə qurduğu dövlətimiz bu gün güclü orduya malikdir. Bu, ötən il Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən İkinci Qarabağ müharibəsində bir daha sübut olundu. Zəfərlə sona çatan müharibədə naxçıvanlı igidlər də qəhrəmanlıq dastanı yazdılar. 30 ilə yaxın davam edən işğala və haqsızlığa son qoyuldu, tarixi ədalət bərpa edildi. Bundan sonra da qarşımıza qoyulan hər bir əmri yerinə yetirməyə hazırıq".



Sonra Əlahiddə Ümumqoşun Ordunun İkinci Qarabağ müharibəsində iştirak edən hərbi qulluqçularına orden və medallar təqdim olunmuşdur. Bildirilmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15, 18 və 30 dekabr tarixli sərəncamları ilə Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularından bir qrupu 3-cü dərəcəli "Rəşadət", "Azərbaycan Bayrağı", 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə, "Vətən uğrunda", "İgidliyə görə", "Hərbi xidmətlərə görə", "Cəsur döyüşçü" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunmuşlar.



Ali Məclisin Sədri Azərbaycan Respublikasının ordenlərini, tədbir iştirakçıları isə medalları təqdim etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təqdimatına əsasən Əlahiddə Ümumqoşun Ordu komandanının birinci müavini-qərargah rəisi, general-mayor Ağalarov Fazil Köçəri oğluna Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 iyun tarixli Sərəncamı ilə "general-leytenant" ali hərbi rütbəsi verilmişdir.

Ali Məclisin Sədri "general-leytenant" ali hərbi rütbəsini Fazil Ağalarova təqdim etmişdir.

Fazil Ağalarov minnətdarlıq edərək demişdir: "Dövlətimizin orduya göstərdiyi diqqət və qayğını daim üzərimizdə hiss etmişik. Ali hərbi rütbə ilə təltif olunmağım məsuliyyətimi daha da artırır. Bundan sonra da üzərimizə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəyik".





Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli Fərmanına əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələrində 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçulara mənzillərin orderlərinin təqdimatı olmuşdur.

Ali Məclisin Sədri mənzillərin orderlərini polkovnik Cəlal Mehdiyevə və ehtiyatda olan gizir İlqar Rəhimova təqdim etmişdir.

Şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçmişdir.

Sonra Ali Məclisin Sədri hərbi hissələrdə yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, Əlahiddə Ümumqoşun Ordunun yeni hərbi hissələri üçün hər biri 3 mərtəbəli olmaqla, 1 qərargah binası, 2 əsgər yataqxanası və 1 bölmələrin əşya saxlancı binası tikilmişdir. İstifadəyə verilən 3 mərtəbəli qərargah binasında komandir və rəislər üçün xidməti, istirahət və növbətçi otaqları, stasionar rabitə qovşağı və taktiki siniflər olmaqla, ümumilikdə, 52 otaq yerləşir. Yataqxana binalarında şəxsi heyət üçün nümunəvi şərait yaradılmışdır. Burada növbətçi, silah, məişət, tibb, ideoloji və komandirlər üçün iş otaqları, eləcə də mərkəzi qazanxana sistemi yerləşir. Bölmələr üçün nəzərdə tutulmuş əşya saxlancı binası, ümumilikdə, 74 otaqdan ibarətdir.



Müasir xidmət şəraiti yaradılan hərbi hissədə daimi istilik, su, elektrik və dayanıqlı rabitə sistemi quraşdırılmışdır. Burada abadlıq işləri aparılaraq istirahət guşələri və sıra meydanı salınmış, dekorativ ağac və güllər əkilmiş, ərazi işıqlandırma sistemi ilə təmin edilmişdir.

## Əlahiddə Ümumqoşun Orduya yeni xidməti avtomobillər təqdim edilib





Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazasının gücləndirilməsi tədbirləri sırasında xidməti avtomobillərə olan tələbatın ödənilməsi mühüm yer tutur.

İyunun 25-də Əlahiddə Ümumqoşun Orduya 22 "Mitsubishi L200" markalı xidməti avtomobil təqdim olunmuşdur.

*Ardı 3-cü səhifədə*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni avtomobillərə baxmış, təyinata uyğun istifadə olunması barədə tapşırıq vermişdir.

Sonra Ali Məclisin Sədri Əlahiddə Ümumqoşun Ordunun Texnika parkına, silah və optik cihazlar anbarına baxmışdır. Baxış zamanı bildirilmişdir ki, parkın dam örtüyü yenilənmiş, fasad hissəsi üzlənmiş, beton örtüyü verilmişdir. Silah və sursatların saxlanılması üçün lazımi şərait yaradılmışdır.

Ali Məclisin Sədri muxtar respublikada ordu quruculuğu işlərinin kompleks şəkildə aparıldığını və əhalinin təhlükəsizliyinin təmin olunduğunu bildirmiş, “Torpağı əkmirsənsə, qorumağına, qorumursansa, əkməyinə dəyməz”, – müdrik fikri xatırladaraq bu sahədə görülən işlərin əhəmiyyətini vurğulamış, Türkiyə Silahlı Qüvvələrinin ordu quruculuğu tədbirlərindəki fəaliyyətindən bəhs etmişdir. Güclü dövlətimizin güclü lideri və ordusu sayəsində torpaqlarımızın işğaldan azad olunduğunu bildirən Ali Məclisin Sədri Silahlı Qüvvələr Gününün böyük Qələbə ilə qeyd olunduğunu diqqətə çatdırmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



**26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günüdür**

# Qalibiyyəti ilə tarix yazan Zəfər Ordumuz

*Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli Qərarı ilə ölkəmizdə ilk dəfə Əlahiddə Azərbaycan Korpusu yaradılmış, bununla da Milli Ordumuzun əsası qoyulmuşdur. Lakin 23 ay fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə milli ordu birləşmələri də ləğv olunmuşdur. Bundan sonra milli silahlı qüvvələrin yaradılması 70 il sonraya təsadüf etmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanı ilə Əlahiddə Azərbaycan korpusunun yarandığı tarix – iyunun 26-sı Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan olunmuşdur.*



Ölkəmizdə güclü, nizami və yüksək döyüş hazırlığına malik ordunun yaradılması və inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin ölkəmizdə ilk dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ildən başlayaraq digər sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də mühüm addımlar atılmışdır. Görkəmli dövlət xadiminin gələcəyə hesablanmış uzaqgörən siyasətinin nəticəsində ötən əsrin 70-ci illərində ölkəmizdə Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması, bu mənada, mühüm əhəmiyyət daşıyır. Dahi liderin şəxsi təşəbbüsü ilə hazırlanan hərbçi kadrlar sonradan müstəqil Azərbaycanın qüdrətli Milli Ordusunun peşəkar komandan heyətini təşkil etmişdir. Peşəkar ordunun yaradılmasına isə ötən əsrin 90-cı illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda başlanılmışdır. Belə ki, xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsi yaradılmış, 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında” Qərar qəbul edilmişdir. Həmin il oktyabrın 9-da isə Naxçıvan şəhərində ilk hərbi parad keçirilmişdir. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilmiş və Dövlət Müdafiə Komitəsinin bütün əmlakı 705 saylı hərbi hissəyə təhvil verilmişdir. Ümummilli lider Heydər Əliyev sonralar həmin tarixi qərarı belə xarakterizə etmişdir: ***“1990-1991-ci illərdə Naxçıvanın torpaqlarını qorumaq, Ermənistanın hərbi təcavüzünə cavab vermək üçün sentyabrın əvvəlində… bizim ilk addımlarımızdan biri Naxçıvanda Müdafiə Komitəsi yaratmaq oldu. Bununla da biz Naxçıvanda mütəşəkkil silahlı qüvvələr yaratmaq prosesinə başladıq. Biz burada Azərbaycanın Milli Ordusunu yaratdıq”.***

1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtması milli ordumuzun təkmilləşməsi prosesinə də öz təsirini göstərmişdir. Belə ki, qısa müddətdə ordumuzun strukturu tam formalaşdırılmış, bütün növ hərbi birləşmələr yaradılaraq komplektləşdirilmişdir. Eyni zamanda dahi şəxsiyyətin rəhbərliyi ilə ordunun qanunvericilik bazası yaradılmış, “Silahlı Qüvvələr haqqında”, “Hərbi xidmət haqqında”, “Hərbi qulluqçuların statusu haqqında” qanunlar qəbul edilmişdir. Ordumuzun yeni dövrün tələblərinə uyğun formalaşdırılması, beynəlxalq əlaqələrinin qurulmasına diqqət yetirilmiş, 1994-cü ildə Azərbaycan Respublikası NATO-nun “Sülh Naminə Tərəfdaşlıq Proqramı”na qoşulmuşdur. Nəticədə, milli hərbi birləşmələrimiz sülhməramlı qismində dünyanın müxtəlif münaqişə zonalarında iştirak etmiş və bu missiya hazırda da davam etdirilir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin ordu quruculuğu sahəsində gördüyü işlər bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə iqtisadiyyatının sürətli inkişafı, ilk növbədə, dövlətimiz üçün prioritet olan ordumuzun büdcəsinin artmasına, orduda müasir komplektləşdirmənin aparılmasına geniş imkanlar yaratmışdır. Nəticədə, Silahlı Qüvvələrimiz dünyanın ən müasir silah-sursatları, hərbi-texnoloji avadanlıqları ilə təmin olunmuş, şəxsi heyətin döyüş ruhu dəfələrlə yüksəldilmişdir.

Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilmiş, dövlət başçısının “Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordu yaradılmışdır. Bu əlamətdar hadisə Naxçıvanın müdafiə potensialının, hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə əsaslı zəmin yaratmışdır. Ölkə Prezidenti bu barədə demişdir: ***“Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır”.***



Bu gün muxtar respublikamızda ordu quruculuğu sahəsində mühüm işlər görülür. Hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır. Təsadüfi deyil ki, ötən dövrdə muxtar respublikanın etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilmiş tədbirlər çərçivəsində yüzlərlə hərbi obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Həmçinin xalq-ordu birliyi özünün ən yüksək səviyyəsinə çatmışdır. ***“Bu gün müstəqil Azərbaycanda ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Ölkə Prezidentinin rəhbərliyi ilə ordumuz inkişaf edərək ən müasir səviyyəyə gəlib çatmışdır. Ən yeni silah və texnika ilə təminat, vətənpərvər və peşəkar şəxsi heyət, hərbi qulluqçulara davamlı qayğı Azərbaycan Ordusunun reallıqlarıdır. Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki ordu və birləşmələri də mühüm təşkilatlanma yolu keçərək daha da möhkəmlənmişdir”***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mütəmadi olaraq sərhəd bölgələrindəki hərbi hissələrdə olması, xidmətin vəziyyəti, əsgərlərin həyat tərzi və problemləri ilə yaxından maraqlanması şəxsi heyətə mənəvi-psixoloji dəstək verməklə onlarda vətənpərvərlik hisslərinin daha da güclənməsinə səbəb olmuşdur.

Ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir ki, Əlahiddə Ümumqoşun Ordu 2017 və 2018-ci illərdə döyüş və ictimai-siyasi hazırlıqda əldə olunmuş nailiyyətlərə görə Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülmüşdür. 2017-ci il oktyabrın 18-də muxtar respublikada ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən möhtəşəm hərbi parad ordumuzun Naxçıvanda yerləşən hissələrinin gücünü bütün dünyaya nümayiş etdirmişdir. 2018-ci ilin may ayında Əlahiddə Ümumqoşun Ordunun 26 il işğal altında olan Şərur rayonunun Günnüt kəndini və 11 min hektar ərazini azad edərək mühüm strateji üstünlüklərə yiyələnməsi isə bu gücün praktik nəticəsini ortaya qoymuşdur. Həmçinin “Günnüt əməliyyatı” ordumuzun düşmənə digər işğal altında olan ərazilərimizin də azad olunacağının ismarıcını vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə ordu quruculuğu sahəsində həyata keçirilən əhəmiyyətli tədbirlərdən biri də hərbi kadr hazırlığı ilə bağlıdır. Ötən dövrdə göstərilən böyük dövlət qayğısı hesabına Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin maddi-texniki bazası möhkəmləndirilmiş, kursantlar üçün müasir tədris və məişət şəraiti yaradılmışdır. İndiyədək minlərlə kursantın təhsil aldığı lisey ordumuzun peşəkar zabitlərlə təminatında böyük rol oynayır.



Ümumilikdə, ölkəmizdə hərbi sahəyə göstərilən diqqət və qayğı güclü ordumuzun formalaşması ilə nəticələnmişdir. Uzun illərdən bəri BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının işğal etdiyi Azərbaycan ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılması ilə bağlı qəbul etdiyi qətnamələrin icra olunmaması, məsələyə beynəlxalq birliyin susqunluğu, işğalçı ilə torpaqları işğal olunan tərəfə eyni münasibət göstərilməsi, ötən il düşmənin ölkəmizə qarşı həyata keçirdiyi təxribatların sayının artması ordumuzun bu problemi təkbaşına həll etməsinə rəvac verdi. 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordumuz işğal altında olan ərazilərimizin azad olunması üçün geniş hərbi əməliyyatlara başladı. Dövlət başçısı həmin gün mövcud vəziyyətlə əlaqədar Azərbaycan xalqına müraciətində dedi: ***“Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?!.. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq...!”***

Tarixə “Vətən müharibəsi” kimi yazılan, Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olduğu bu savaş XXI əsrin ən sürətli, müasir və ədalətli müharibəsi oldu. Ona görə sürətli ki cəmi 44 gün ərzində Azərbaycan əsgəri düşmən ordusunu diz üstə çökdürərək tamamilə onu darmadağın etdi. Ona görə müasir ki Azərbaycan Ordusu bu müharibədə ilk dəfə olaraq pilotsuz idarə olunan texnologiyalarla düşmənin geniş həcmdə bütün hərəkət edən və etməyən hərbi obyektlərini, o cümlədən illərlə qurulmasına əmək sərf edilmiş keçilməz sədlərini məhv edərək bütün dünyanı təəcübləndirdi. Ona görə ədalətli ki düşməndən fərqli olaraq Azərbaycan Ordusu heç zaman erməni mülki əhalinin yaşadığı obyekt və əraziləri hədəfə almadı. Halbuki tarixdə heç bir zaman müharibə nəticəsində ordusu tamamilə məhv edilmiş hər hansı bir ölkənin mülki əhalisinə az da olsa, zərər toxunulmaması faktı yoxdur!

Bu müharibə, həm də dünya hərb tarixinə sülhsevər Azərbaycan Ordusunun nəyə qadir olduğunu göstərdi. Müharibənin dayandırılmasına və düşməni təslimçilik aktına qol çəkməsinə məcbur edən Şuşa zəfəri bu qalibiyyətin əsl kulminasiya nöqtəsi oldu. Uca qayaların üstündə yerləşən, heç bir hərbi texnikanın hərəkət edə bilmədiyi əraziyə – Şuşaya dişi-dırnağı ilə qalxan qəhrəman əsgərlərimiz düşmən üzərinə süngü-bıçaqla atılaraq onu yerindəcə boğdu. Ağlagəlməz və fziki cəhətdən mümkün olmayan bu əməliyyatla Azərbaycan

*Ardı 4-cü səhifədə*

əsgəri bütün dünyanı şoka saldı. Dünya hərb tarixinə qızıl hərflərlə yazılan, ən məşhur hərbi mərkəzlərin ekspertlərinin tədqiq etdiyi və öyrəndikləri "Şuşa əməliyyatı" Azərbaycanın dünyanın ən güclü orduya malik olduğunu bir daha göstərdi. Bundan əlavə, müharibənin gedişində Azərbaycan Ordusunun fərqli metodlarla düşmənin bütün hava müdafiə sistemlərini, silah anbarlarını, gizlədilmiş digər hərbi obyektlərini tamamilə dağıdaraq çökdürməsi də dünya hərb elminə salınan və gələcəkdə hərbi kadrların hazırlanmasında tətbiq olunacaq əməliyyat nümunələridir.

Əsas şüarı "Qarabağ Azərbaycandır!" olan Vətən müharibəsi, həm də ölkəmizin bu haqq mübarizəsində ona siyasi və mənəvi dəstək olan dostlarının kim olduğunu göstərdi. Bu müharibə, hər şeydən əvvəl, "Bir millət, iki dövlət" olan qardaş Türkiyə Respublikasının siyasi və mənəvi dəstəyi ilə iki qardaş xalqın birlik və həmrəyliyini bir daha bütün dünyaya sübut etdi. 10 dekabr 2020-ci ildə Bakıda Azadlıq meydanında təşkil olunan Zəfər paradında Türkiyə və Azərbaycanın dövlət başçıları bu möhtəşəm tədbirdə birgə iştirak etdilər. 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, hərbi gəmi və katerlər, eləcə də Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi, düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qisminin nümayiş olunduğu paradda üç il bundan əvvəl Ali Baş Komandan cənab İlham Əliyevin ***"Gün gələcək, işğaldan azad olunmuş torpaqlarda qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək"*** sözləri öz təsdiqini tapdı. Günlərlə dünyanın nüfuzlu media qurumlarının silsilə re-



portajlar təqdim etdiyi Zəfər paradı xalqımızı bir daha sevinc göz yaşlarına boğaraq ordumuzla haqlı olaraq qürur duyduğumuzu bir daha təsdiqlədi.

Bu il aprelin 12-də isə Bakıda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin iştirakı ilə Hərbi Qənimətlər Parkının açılışı oldu. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 gün davam edən "Dəmir yumruq" əməliyyatında məhv edilmiş və ya qənimət olaraq ələ keçirilmiş yüzlərlə adda hərbi texnika Bakıya gətirilərək elə Ali Baş Komandanın təşəbbüsü ilə 5 hektarlıq ərazidə yaradılmış parkda nümayiş etdirilməkdədir. İllərdir, Azərbaycana qarşı çirkin iddialarla çıxış edən, torpaqlarını işğalda saxlayan "güclü" erməni ordusunun aqibəti bu parkda daha yaxşı görünməkdədir.

Şuşanın alınması ilə Vətən müharibəsinə qalibiyyət möhürünü vuran, ata vəsiyyətini yerinə yetirən cənab İlham Əliyev qalib sərkərdə kimi ulu öndər Heydər Əliyevin builki doğum günündə Onun doğulub boya-başa çatdığı Naxçıvana gəlmişdir. Muxtar respublikada ordu quruculuğu sahəsində görülən işləri bir daha qiymətləndirən Ali Baş Komandan burada Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının, hərbi aerodromun açılışında iştirak etmişdir. Muxtar respublikanın hərbi təhlükəsizliyi ilə bağlı görülən işləri yüksək qiymətləndirən ölkə başçısı demişdir: ***"Ümumiyyətlə, deyə bilərəm ki, Naxçıvanın müdafiə potensialının möhkəmlənməsinə həmişə böyük diqqət göstərilib. Təsadüfi deyil ki, mənim göstərişimlə Naxçıvanda Ümumqoşun Əlahiddə Ordu yaradılmışdır və ordu ən müasir silah və texnika ilə təchiz edilmişdir. Bu gün Naxçıvan ordusunda olan hərbi texnika, deyə bilərəm ki, bəlkə də, bəzi qabaqcıl ölkələrdə olan texnikadan üstündür. Çünki Naxçıvana ən müasir, ən son texnologiyaya əsaslanmış texnika gətirilir. Deyə bilərəm ki, bütövlükdə, Azərbaycan Ordusuna xaricdən gətirilmiş texnikaların böyük əksəriyyətinin nümunələri Naxçıvan Muxtar Respublikasında mövcuddur. Əlbəttə ki, Naxçıvan Ümumqoşun Əlahiddə Ordunun döyüş qabiliyyəti də yerindədir və uğurlu Günnüt əməliyyatı – üç il bundan əvvəl keçirilmiş əməliyyat bunun bariz nümunəsidir. O əməliyyat Ermənistanda hakimiyyət dəyişikliyinə təsadüf etdi, ona görə, hakimiyyətə gəlmiş yeni iqtidar bunu bir növ ört-basdır etməyə çalışdı. Biz də heç üstünü vurmadıq. Çünki bizə hansısa təbliğat yox, real iş lazımdır. Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət edirik. İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi. Qarşı tərəf bilir ki, bizim nəzarətimizdə olan bu kommunikasiyalar istənilən vaxt kəsilə bilər və əlbəttə, öz addımlarını buna uyğun atmalıdır".***

Torpaqlarımızın işğaldan azad olunmasında Əlahiddə Ümumqoşun Ordunun uğurlarına toxunan Ali Baş Komandan bunları qeyd etmişdir: ***"İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda mən onu da bildirməliyəm, yəni artıq bildirə bilərəm ki, Naxçıvan ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. İndi biz həmin o silahsursatların ehtiyatlarını təmin edirik, ancaq bu da olub. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının gücləndirilməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır".***

Bəli, illərdir, Ali Baş Komandan cənab İlham Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər öz nəticəsini verdi. Erməni ordusunu, bütövlükdə, saxta və uydurma erməni milli şüuruna, ideologiyasına böyük zərbə vuran Azərbaycan Silahlı Qüvvələri bu zəfərlə həm də regionda yeni reallıqlar yaratdı. Bölgənin rifahı və tərəqqisi üçün Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları məlum Bəyannamədə Zəngəzur dəhlizi vasitəsilə nəqliyyat əlaqələrinin bərpası da ölkəmizin regionda böyük söz sahibi olmasının göstəricisidir. Bu yaxınlarda – 15 İyun – Milli Qurtuluş Günündə Azərbaycan və Türkiyə prezidentlərinin Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşada imzaladıqları Şuşa Bəyannaməsi isə bir çox aspektdən, həmçinin hərbi təhlükəsizlik baxımından böyük məna kəsb edir. Bəyannamədə deyildiyi kimi, "…Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır".

***Bu il Azərbaycan öz Silahlı Qüvvələrinin yaradılmasının 103-cü ildönümünü Qalib Ordu kimi qeyd edir. İllərdir, 26 İyun – Silahlı Qüvvələr Günü ərəfəsində böyük ümidlə dediyimiz – Azərbaycan əsgərinin xalqımıza qələbə sevincini yaşadacağı, üçrəngli bayrağımızın işğal altında qalan torpaqlarımızda dalğalanacağı gün yaxındadır sözləri artıq öz təsdiqini tapmışdır. Şükürlər olsun ki, bu gün ordumuzun işğaldan azad etdiyi torpaqlarımızda üçrəngli bayrağımız dalğalanır. Bizə bu milli qüruru yaşatdıqlarına görə Ali Baş Komandana, ordumuza daim minnətdar olacağıq!***

**"Şərq qapısı"**

## 26 İyun – Silahlı Qüvvələr Günü qeyd olunub

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mədəniyyət Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə şəhid və qazi övladları ilə görüş keçirilib.*

Görüş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanılıb. Tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış ediblər. Çıxışlarda bildirilib ki, ölkəmizdə olduğu kimi, muxtar respublikada da ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəxslərin əziz xatirəsi daim yad edilir, onların ailə üzvlərinin maddi-məişət şəraiti yaxşılaşdırılır, müharibə iştirakçılarına, qazilərə xüsusi diqqət və qayğı ilə yanaşılır, onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyazlar və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir.

Şəhid qızı Zümrüd Cəfərova, hərbi əməliyyatlar zamanı sağlamlığını qismən itirmiş Vahid Hüseynov və sosial könüllü Gülcan Əlizadə çıxış edib, tarixi zəfərlə bağlı öz təəssüratlarını bölüşüblər.

Naxçıvan Dövlət Universitetinin açıq idman meydançasında keçirilən tədbirdə universitetin rektoru Elbrus İsayev 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun tarixi torpaqlarımızın işğaldan azad edilməsində qazandığı qələbədən danışıb.

Pedaqoji fakültənin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyevin çıxışından sonra hərbi orkestrin müşayiəti və idmançı tələbələrin iştirakı ilə hərbi idman oyunları nümayiş olunub. İdmançı tələbələrin iştirakı ilə ədəbi-bədii kompozisiya səsləndirilib. Şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq tələbələr "Şəhidlər ölməz, vətən bölünməz!" şüarını səsləndiriblər.

Sonra bir qrup müəllim və idmançı tələbə təşəkkürnamə ilə təltif edilib.

**Xəbərlər şöbəsi**

## Babək rayonunda "Şərq qapısı" qəzetinin yubiley tədbiri keçirilib

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə təsdiq olunan Tədbirlər planına əsasən iyunun 25-də Babək Rayon Mədəniyyət Sarayında mətbu orqanın yubiley tədbiri keçirilib.*

Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyəti başçısının müavini Səbinə Abbasova açaraq "Şərq qapısı" qəzetinin mətbuat tariximizdəki rolundan, muxtar respublikanın, o cümlədən də Babək rayonunun sosial-iqtisadi inkişafının, ictimai-siyasi həyatının tarixiləşdirilməsində qəzetin əhəmiyyətindən bəhs edib.

"Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova tədbirin 26 İyun – Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü ərəfəsinə təsadüf etdiyini diqqətə çatdıraraq 44 günlük Vətən müharibəsində ordumuzun qazandığı zəfərdən, informasiya müharibəsindəki qələbədə kütləvi informasiya vasitələrinin müstəsna rolundan bəhs edib. Çıxışda 100 yaşlı mətbu orqanın keçdiyi tarixi inkişaf yoluna nəzər salınıb, milli mətbuatımıza göstərilən diqqət və qayğıdan, "Şərqin səhəri" qəzetinin, Babək rayon ziyalılarının kənar müəllif kimi qəzetlə yaxından əməkdaşlığından danışıb. Bildirilib ki, qəzet keçmişdə olduğu kimi, bu gün də muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafına öz töhfəsini verir.

Qeyd olunub ki, Azərbaycançılıq ideologiyasına, milli məfkurəyə xidmət edən "Şərq qapısı" qəzeti XX əsrin 90-cı illərinin əvvəllərində ümummilli lider Heydər Əliyevin müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi yolunda həyata keçirdiyi tədbirlərin fəal təbliğatçısı olmuşdur. 1990-1993-cü illərdə ulu öndərimiz qəzetin fəaliyyəti ilə yaxından maraq-



lanmış, çətin şəraitdə belə, onun nəşr olunmasını təmin etmişdir.

Baş redaktor müstəqillik illərində muxtar respublikada jurnalistikanın inkişafı istiqamətində aparılan siyasətin uğurlarından bəhs edib. Çıxışda 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının, eləcə də Ali Məclis Sədrinin 2021-ci il 21 yanvar tarixli Fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyinin yaradılmasının "Şərq qapısı" qəzetinin peşəkarlıq fəaliyyətinin yüksəldilməsinə əhəmiyyətli təsirindən danışılıb. Vurğulanıb ki, "Şərq qapısı" qəzeti daim Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunub, bu mətbu orqanın 75, 80, 85, 90 illik yubileyləri yüksək səviyyədə qeyd edilib. 2021-ci il 1 iyun tarixli Sərəncamına əsasən "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı olmaqla, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymətdir. Baş redaktor göstərilən yüksək diqqət və qayğıya görə qəzetin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlıq edib, bundan sonra da səylə çalışacaqlarını diqqətə çatdırıb.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov çıxışında müstəqillik illərində muxtar respublikada digər sahələr kimi, mətbuatın da yeni inkişaf mərhələsinə qədəm qoymasından bəhs edib.

Qeyd edilib ki, bu gün "Şərq qapısı" qəzeti redaksiyasında yüksək səviyyəli, müasir tələblərə cavab verə biləcək qəzet nəşri üçün müasir iş şəraiti yaradılmışdır. 2012-ci ildən etibarən *www.serqqapisi.az* saytı vasitəsilə qəzet dünyanın Naxçıvanla bağlı informasiya tələbatını ödəməyə başlamışdır.

Tədbirdə "Şərq qapısı" qəzetinin Xəbərlər, ictimai-siyasi məsələlər və kənar müəlliflərlə iş şöbəsinin müdiri Nail Əsgərov, "Şərqin səhəri" qəzetinin redaktoru Muxtar Rzazadə, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Babək Rayon Təşkilatının sədri Vəliqulu Həsənov, "Şərqin səhəri" qəzetinin əməkdaşı Lalə Allahverdiyeva, Babək Rayon Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri İmran Kələşov çıxış edərək "Şərq qapısı" qəzetinin Babək rayonunun ictimai-siyasi, mədəni, sosial həyatını geniş şəkildə işıqlandırmasından, milli mətbuatımızın inkişafında, jurnalist kadrların hazırlanmasındakı rolundan ətraflı söhbət açıblar. Tədbir ərzində qəzetin tarixi inkişaf yolu və iş prinsipini əks etdirən, müstəqillik illərində Babək rayonunun qazandığı uğurlardan bəhs edən videoslayd nümayiş olunub.

Sonda "Şərq qapısı" qəzeti ilə yaxından əməkdaşlıq edən "Şərqin səhəri" qəzetinin redaktoru Muxtar Rzazadəyə Fəxri fərman və hədiyyələr, digər qələm sahiblərinə hədiyyələr təqdim olunub.

**✍ Nail ƏSGƏROV**


### İtmişdir

Rəhimov Əzim Nəbi oğlunun adına olan hərbi bilet və ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 23, ev 1A ünvanında Xəlilova Xatın Həsən qızının adına olan 16605 inventar nömrəli texniki pasport və MH-0038243 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 506